Hər on beş saniyədən bir bu dünyada bir insan doğulur.
Hər on səkkiz saniyədən bir bu dünyada bir insan ölür.
Demək ki, bu dünyada insanın doğulması ilə ölməsi arasında cəmi üç saniyə vaxt var.
Sənsə deyirsən ki, bir dəqiqə gözlə, gəlirəm...

***İlqar Rəsul***

*“Getmə...” romanını ötən ilin yazında oxumuşam, amma fikir bildirməyə bir müddət çətinlik çəkdim. Romandan aldığım təsir elə güclü oldu ki, nə deyəcəyimi, nə yazacağımı düşünə belə bilmədim, əslində, heç indi də fikrimi tam ifadə edə biləcəyimdən əmin deyiləm. Çünki insan həyatının sadəcə bədii-obrazlı nəql edilən hekayəsi deyil bu roman, düşündürücü, fəlsəfi yüklü bir əsərdir və bu cür mətnləri anlatmaq anlamaqdan daha çətindir, məncə. İlqar Rəsulun təqdim və təsvir etmə bacarığı fərqlidir; kitabın “Müəllifdən” və “Proloq” bölmələri, əslində, özü ayrılıqda bir romandır, insanı daha geniş düşünməyə, həyatı “sürətlə içimizdən ötüb gedən və hər an üstümüzdən keçə biləcək böyük bir yük qatarı” kimi dərk etməyə yönəldən roman...*

*Romandakı “Qeyd (çap olunmamış romandan)” isə fəlsəfi aforizmlərlə zəngindir və İlqar Rəsulun gələcək romanlarının da keyfiyyət və üslubca fərqli olacağına inanmağa əsas verir.*

***Qəmər Mürşüdlü***
*(BDU Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının dosenti)*

# OXUCU RƏYLƏRİ
## (ixtisarla)

Oxuyun mütləq. Bu kitabda hamının bir məni var. Mən iki dəfə oxudum. Oxuduqca hisslərimin acısını təsvir etməyə çox çətinlik çəkirdim. Qaranlıq otağın soyuq havası, sanki bütün fikirlərimi dondururdu. Oxuduqdan sonra bir daha əmin oldum ki, ən dəxlisiz, ən mükəmməl sevgilər qadınlardan çıxır. Kişilər o qədər bacarmaz sevməyi də, elə getməyi də... İşdə rəisimiz yaxınlaşıb dedi, “o nə kitabdır, yaman həyəcanlı oxuyursan?” İş yoldaşım qız qayıtdı ki, adam inanmır, kitabın üstündən əsəbi baxan o eynəkli kişi elə həyəcanverici nəsə yaza bilər.

Yazım o eynəkli adam haqqında… Bəlkə də, onun qədər təmkinli, eyni zamanda, səbirsiz az adam var. Gülmək lazım olanda sadəcə gülümsünür, iki abzaslıq mətnə bir romanı sığışdıra bilir, dünyanın bütün kirindən, pisliklərindən qaçıb ona sığına bilərsən. İçinin bütün dərdi ilə ağ bayraq qaldıra bilən biridir. Bütün enerjisi ilə bəşəriyyətə meydan oxuyar. Hamını dilindən anlayar, amma onun dilindən az adam anlayar. Məsələn, məncə, kimsə ondan istifadə edər öz xeyri üçün, o da təmkinini pozmadan, gülümsəyərək deyər ki, mən icazə verməsəm, bunu kimsə edə bilməz. Məncə, o başqa planetdən gəlib, hələ ki gizlədir…

***Çinarə Ömray***

***

Çox bəyəndiyim İlqar Rəsulun “Getmə...” romanını. Ardınca X Bakı Beynəlxalq Kitab sərgisindən onun “Sara”, “Katyuşa”, “Günəşdən o yanda” romanlarını da alıb oxudum. Hamısı da müəllifin imzası ilə. Amma mənə ən çox “Getmə...” romanı təsir etmişdi.

***Şəbnəm Quliyeva***

***

Möhtəşəm əsərdir! Sətir-sətir titrədir insanın hisslərini... Düşüncələrin və hisslərin mükəmməl harmoniyası, mübarizəsi... Qatarların bu romanda ancaq gedişi var, gəlişi yox... Pol Morianın “Simpatiya”sı bu romanda ayrılıq marşı kimi hədsiz kəsici və üzücü... Qalibin müəyyən edilməsi isə oxucunun öhdəsinə buraxılıb. Mənim qənaətim belədir: sevginin qələbəsi bir ömrün tənəzzülü bahasına başa gəlirsə, buraxın o qatarı, getsin...

Təəssüf ki, İlqar Rəsulun “Getmə...”sini hələ indi oxumuşam. Əks halda, milli nəsrimiz barədə narazılıq etməyə dilim gəlməzdi...

***Maya İmran Novruzova***

***

İlqar Rəsulun “Getmə...” romanı müasir Azərbaycan ədəbiyyatında oxuduğum ən təsirli əsərlərdən biridir.

***Gülüstan Bagirova***

***

“Ləyaqət – sənin başqaları qarşısında əskilmənə imkan verməyən dəyərlər sistemidir”. Əgər İlqar Rəsulun “Getmə...” romanı tək bu cümlədən ibarət olsaydı belə, onu oxumağa dəyərdi. Adətən, tez oxuyuram kitabı. Ancaq bu dəfə bir neçə gün çəkdi. Və bu bir neçə günü oxuduğum kitabın təsiri altında yaşadım. Adi bir həyat, adi bir sevgi, bir qədər qeyri-adi düşüncəli qəhrəmanı olan roman, LAKİN MÖHTƏŞƏM!

Roman yüksək səviyyədə həyatı reallığı əks etdirməklə bərabər oxucunu məlumatlandırır. Ədəbiyyat, incəsənət, tarix – bütün bunlar incəliklə oxucunun maariflənməsinə yönəlib. Həyat, ömür, yaşayış, ləyaqət, hətta ölümün İlqar Rəsul tərifi var bu romanda. Bu romanın bir çox ifadələri aforizmdir.

***Təranə Məmməd***

***

Bir İlqar Rəsul şedevri. Bu kitab bestseller olmalıdır. Romanı şənbə və bazar günləri oxuyub bitirdim. Xalid Hüseyni, Elif Şafak, Paulo Koelyonun romanlarını necə sevərək, sonluğu səbirsizliklə gözləyərək oxu-

yurdumsa, elə də “Getmə...”ni oxudum. Hələ əsərin əsas qəhrəmanı Həmidin söylədiyi ifadələr... “Ruh elə bir yüksəklikdir ki, oradan düşən sağ qalmır”, “Yaşamaq özü də bir yaradıcılıqdır”...

Daha sonra romandakı hadisələrin yaşadığımız “20 Yanvar”, Qarabağ müharibəsi ilə əlaqələndirilməsi, insan faciələri, Pol Morianın “Sympathy”si... Tək kəlmə ilə mükəmməl!!! Nəfəs almadan oxunan roman!!!

***Namiq R.Əliyev***

***

“Getmə...” möhtəşəmdir. Oxuduğum ən gözəl roman. O qədər kitab oxumuşam ki, amma bu kitab mənim üçün bir başqadır. Bitirdiyim bir il olsa da, hələ də sosial şəbəkə hesablarımda bu romandan sitatları, fikirləri təkrar-təkrar paylaşmaqdan zövq alıram. Çətin ki, illər bu kitabı mənim yaddaşımdan silə bilə.

***Könül Rüstəmova***

***

İlqar bəyin “Getmə...” romanı ilə anladım ki, sevginin quluna çevrilən insanlar dünyanın ən məsum və acılara qapıları könüllü açan şəxslərdir. Əslində, romanda tək sevgidən deyil, həyata dair bir çox məsələlərdən bəhs edilir. Yetər ki, sən o məsələləri təhlil edib tapa biləsən. Çox nadir əsərlər var ki, onların təsirindən günlərlə çıxmamışam və oxuduqca ağlamışam. “Getmə” romanı da belə oldu. Oxumağa dəyər bir əsərdir. Mənə elə gəlir ki, hər insan bu əsərdə mütləq özünə aid bir hissə tapacaq.

***Gülşən Şərif***

***

Gözəl kitablarım seriyasından olan roman.

***Gülər Natiq İsaq***

***

Jurnalist, yazıçı İlqar Rəsulun “GETMƏ...” romanını Amerikada oxudum. Çox bəyəndim. Bu gözəl əsər üçün İlqar bəyi təbrik edirəm.

***Cavad İsmayılbəyli***

***

"Getmə..." romanını çox axtarandan sonra Şəkidə tapıb aldım. Nə yaxşı ki, oxumaq nəsib oldu. Müəllifə sonsuz təşəkkürlər!

***"Kitablardan incilər" səhifəsi***

***

Mən İlqar Rəsulu yazıçı Təranə Məmmədin kitabının təqdimatında gördüm ilk dəfə. Həmin ərəfədə onun "Getmə..." romanı çıxmışdı və hələ də o kitabın təsiri altında idim. Yaxınlaşdım, İlahi, insan nə qədər mədəni, təvazökar olarmış, görüşdük və mən ona dedim ki: "İlqar bəy, lütfən, "Getmə"yin. Siz bizim qiymətlimizsiniz".

***Gülnarə Rza***

***

Bəlkə də indiyəcən oxuduğum ən gözəl kitabdır. Bu kitabdan bir şey anladım: sevdiyiniz insana vaxtında deyin onu sevdiyinizi və vaxt sizi ayırmadan anı yaşayın. Yoxsa bir ömür o sevgi qəlbinizdə sağalmaz yara kimi qalacaq. Hər kəsə xoş mütaliələr.

***NƏRGİZ***

***

Dünən dinlədim romanı. Çox bəyəndim. Həmidin düşüncə tərzində özümü gördüyümü də desəm, ölüm olmaz ki?..

***Gülgəz Nur***

***

Çoxdandır heç bir kitab məni özünə bu qədər bağlaya bilmirdi. Kitabı alan gün, evə qayıdarkən avtobusda oxumağa başladım. İlk dəfədir, saat yarımlıq yolun tez bitdiyindən şikayətləndim. Gecə saat 11:30-da romanı bitirdim. Çox kövrəldim, amma ağlamadım, ağlamağı özümə qadağan etmişəm. Əsər barədə danışmağa acizəm. Bildiyim sözlərin heç biri "Getmə..." haqqında layiqli fikir üçün yetərli deyil. Möhtəşəmdir!

***Fərqanə Qafarzadə***

***

“Getmə...” romanı elə əsərlərdəndir ki, bir dəfə oxumaqla kənara qoya bilmirsən. Mən həyatımın ən çətin günlərində bir neçə dəfə bu romanı zövqlə oxumuşam. Bəzi cümlələri atalar sözü kimi, zərbi-məsəl kimi hələ də yadımda saxlamışam.

***Cəlil Cavanşir***

***

“Hər yer və hər kəs səni buraxmaq istəməsə də, gedəcəksən”. “Getmə...”dən bu sözləri paylaşıb, təsirindən göz yaşlarımda boğulduğumda düşünməzdim ki, gün gələcək buraxmaq istəmədiklərimiz getmək istəməsələr belə, getmək məcburiyyətində qalacaqlar... Bir gün təkrar oxumaq ümidi ilə...

***Türkanə İsmayılova***

***

Heç bir kitab mənə bu cür təsir etməyib. Zaman çox sürətlə keçir, bu qədər sərt cəzalar verməməlidir sevən sevdiyinə. Biri sevginin nə olduğunu bilmirsə, ondan qorxursa, bunun cəzası onu yoxluğunla tərbiyə etmək deyil, ona sevginin və sevilməyin necə gözəl olduğunu sübut etmək lazımdır.

***Ləman Hüseynova***

***

İki gün poliklinikaları gəzib ürəyimi yoxlatdırmağa səbəb olan kitab. Oxuyub bitirəndə elə bildim, ürəyimin içindən qatar keçib.

***Cavidan Əziz***

***

“Getmə...”ni vərəqlədim, romandan ayrıla bilmədim. Oxuyub bitirəndən sonra da təsirindən çıxa bilmirəm. Müəllifə təşəkkürlər. Ondan ancaq bu səviyyədə roman gözləyirdim.

P.S. Romanı oxuyandan sonra mən də qatarlara nifrət etdim.

***Gülanə İsayeva***

***

"Bu dünyada qala bilməyənlər gedə bilərlər". Bir sözlə, möhtəşəm! Oxumağa dəyən, dəyərli romandır.

***Aydın Tağıyev***

***

Hələ də bu kitabın təsirindən çıxa bilməmişəm. Həm müəllifi qınadım, həm də qələmini çox sevdim. Qınadım ona görə ki, yenə də əziyyət çəkən qadın oldu. Amma heç Həmidin də ürək açan taleyi olmadı. Sevdim ona görə ki, əsərdə o qədər maraqlı fikirlər var.

***Səidə Bəkirqızı***

***

İlqarı həmişə istedadlı insan kimi tanımışam. Amma indi belə bir istedadlı yazıçı ilə tələbə yoldaşı olduğum üçün qürur duydum.

Məni onun təhkiyəsi xüsusi cəlb etdi. Tanrıvari nəzər nöqtəsi ilə subyektiv təhkiyə tipinin sintezində bu qədər gözəl ifadə hər yazara müəssər olmur.

***Könül Aydın***

***

Adətən, filmlərin musiqisi olur. Bunu romanda istifadə etmək gözəl alınıb. Qatar hissəsini həmişə musiqi ilə oxumuşam. Aləm idi.

***Gülnar Məmmədova***

***

"Getmə..." romanı haqda çooox sözlər yaza bilərdim və yazmalı idim də. Sadəcə, qorxdum ki, romanın mənə göstərdiyi təsiri sözlərlə yetərincə ifadə edə bilmərəm... Ona görə də fikrimi ancaq bu şəkildə ifadə edirəm: BRAVO, İlqar Rəsul, BRAVO!...

***İntizar Əliheydərova***

***

Həyatın hər üzü bu romanda ən dərin ifadələrlə təsvir edilib. Günümüzdə oxuyacağınız ən maraqlı kitab bu olmalı.

***Türkan Məmmədli***

***

Kitabı oxudum və çox bəyəndim. Hələ də bu romanın təsirindən çıxa bilmirəm. “Getmə...” məni İlqar Rəsulun daimi oxucusu elədi.

***Təhminə Səfərəliyeva***

***

İlqar Rəsulun “Getmə...”sinə bazar günü başladım, yaxşı getdi, axşam bitirdim... Söz yaranandan getmək mövzusu daim aktual olub. Bu kitabda İlqar getməyin reseptini yazıb. Mən bu resepti bəyəndim.

Oxuyan peşman olmaz.

***Pərviz Cəbrayıl***

***

Sevdiyim kitablar sırasına biri də əlavə olundu. Bir dostumun tövsiyəsi ilə və zövqlə oxuduğum. Hər kəsin mütləq özü haqqında çox şey tapacağı kitabdır. Bu çox dəyərli hissdir. Bəzən bir kitab, bir obraz insana özünü daha yaxşı başa düşməyə kömək edir. Elə bil ki, tək deyilsən. “Getmə” – insanın daxili dünyasını, hisslərini, həyatın sərt reallıqlarını dərinliklə əks etdirir. Kitabda sevgi, itkilər, insan münasibətləri və həyatın mənası üzərində düşündürən çox güclü fikirlər var. Kitabın əvvəlindəki “Müəllifdən” başlıqlı mətn və əsərdə ara sıra – Qeyd (çap olunmamış romandan) başlıqları altında yazılan fikirləri yaddaşıma həkk etmək üçün təkrar-təkrar oxudum... Möhtəşəm fikirlərlə zəngin və çoxmənalı romandır: az qala hər cümləsini yüz yerə yozub yüz nəticə çıxarmaq mümkündür... Oxuduqdan sonra bu kitabı bir neçə nəfərə hədiyyə də etmişəm.

***N.Muradova***

***

Sevginin, həqiqətən, mövcud olduğunu insana qəlbən hiss etdirən əsər. Düzünü desəm, bu kitabı oxumağa başlayanda çox sıxılmışdım və maraqsız olduğunu düşünürdüm. Amma nəticədə, gözlənilməz sonluqla qarşılaşdım. Həqiqətən də, oxumağa dəyər dediyim kitablar siyahısına əlavə edəcəyim bir kitab oldu.

***Tahirə Cabbarova***